# HACIQABUL

№ 15
(674)

30 sentyabr
2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


## Pambıq yığımına həsr olunmuş müşavirə keçirilmişdir





***Rayon İcra Hakimiyyətinin akt zalında pambıq yığımına həsr olunmuş müşavirə keçirilmişdir.***

***Müşavirədə pambıq istehsalçıları, mülkiyyətçilər, İƏD üzrə nümayəndələr, bələdiyyə sədrləri, Kənd Təsərrüfatı mütəxəssisləri, Qərargah üzvləri və rayonun ayrı-ayrı idarə, müəssisə rəhbərləri iştirak edirdi.***

Müşavirədə çıxış edən rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə aqrar sahənin, xüsusilə pambıqçılığın inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğıdan danışdı. Ölkə prezidentinin pambıqçılığı prioritet vəzifə kimi qarşıya qoyduğunu, bütün bunların isə kənd adamlarının maddi vəziyyətinin yaxşılaşmasına xidmət etdiyini vurğuladı.

RİH Başçısı qeyd etdi ki, cari ildə rayonumuzda 1200 hektar sahədə pambıq əkilmişdir. Sahələrə aqrotexniki qulluq edilmiş, bol məhsul yetişdirilmişdir. İndi əsas vəzifə gərgin zəhmət bahasına yetişdirilmiş məhsulu vaxtında və itkisiz yığmaqdan ibarətdir. Bu günə qədər tarlalardan 230 tona qədər pambıq yığılıb təhvil verilmişdir. Lakin bu becərilən pambığın çox az bir hissəsidir.Pambığın son qozasınadək yığılıb tədarük məntəqələrinə göndərilməsi üçün bütün qüvvələr səfərbərliyə alınmalı, texnikanın gücündən maksimum səmərəli istifadə olunmalı, yığımın sürəti artırılmalıdır. Sonra RİH Başçısı pambıq yığımının vəziyyəti ilə bağlı qarşıya çıxan problemlərdən, çətinliklərdən və onların aradan qaldırılması yollarından danışmış, tapşırıq və tövsiyyələrini vermişdir.

Müşavirədə RİH Başçısının 1-ci müavini Aslan Səmədov və rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Nurbala Mirzəyevin pambıq yığımı ilə başlı məlumatları dinlənilmişdir. Hava şəraitini nəzərə alaraq pambığın itkisiz və vaxtında toplanması zamanı yarana biləcək problemlərlə bağlı mülkiyyətçilər və pambıq emalı zavodları rəhbərliklərinin də təklif və məlumatları dinlənildi.

Müşavirədə qeyd olundu ki, indi qarşımızda bir məqsəd durur. Tarlalardan zəhmətlə becərdiyimiz məhsulu vaxtında və itkisiz toplamaq.Bunun üçün bütün qüvvələrdən maksimum istifadə olunmalıdır.

***"Hacıqabul"***

## Dövlətə və xalqa sədaqət nümunəsi ilə

### *Prokurorluq işçiləri peşə bayramlarını qeyd etdilər*



Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla həyata keçirilən ardıcıl və sistemli islahatlar, idarəetmə mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsi ilə müşayiət olunan müdrik və səmərəli dövlət idarəçiliyi, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər ölkənin müstəqilliyinin daha da möhkəmləndirilməsinə, onun davamlı və dayanıqlı inkişafının təmin olunmasına, dövlətimizin qüdrətinin artmasına, xalqımızın əmin-amanlığının və rifah halının, vətəndaş həmrəyliyinin yüksəlməsinə zəmin yaratmışdır.

Ölkəmizin dövlət təsisatları sırasında xüsusi yeri və statusu olmaqla, fəaliyyəti Konstitusiya normaları ilə nizama salınan Azərbaycan prokurorluğu yarandığı gündən indiyədək mürəkkəb, eyni zamanda şanlı bir inkişaf yolu keçmiş, zamanın çətin sınaqları ilə üzləşməsinə baxmayaraq hər şəraitdən üzüağ çıxmış, doğma xalqına və müstəqil dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir quruma çevrilmişdir.

1918-ci il mayın 28-də ölkəmizdə milli hakimiyyətin qurulmasından sonra öz idarəçilik sistemini yaradan Xalq Cümhuriyyəti həmin il oktyabrın 1-də özünün prokurorluq orqanlarını yaratdı.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə prokurorluğun ilk dəfə yaranması və fəaliyyətə başladığı həmin günü əsas götürərək 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə oktyabr ayının 1-ni prokurorluq işçilərinin peşə bayramı günü elan etmiş və hər il bu əlamətdar günün qeyd olunmasını rəsmiləşdirmişdir.

Ulu öndərin dövlətçilik iradəsi ilə gerçəkləşən bu reallıq Azərbaycan prokurorluğunun cəmiyyətdə və dövlət təsisatları sırasında tutduğu yeri müəyyənləşdirməklə, prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının və hərtərəfli dəstəyin təzahürü kimi hər bir prokurorluq əməkdaşında qürur hissi doğurur.

Müstəqil Azərbaycan Respublikası prokurorluğunun dövlətçiliyin maraqlarına və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğı və diqqəti nəticəsində olmuşdur.

Dövlətçiliyin daha da möhkəmləndirilməsi və ölkəmizin hərtərəli inkişafının təmin edilməsi baxımından möhtəşəm vəzifələrin həyata keçirilməli olduğu hazırki dövrdə Azərbaycan Respublikasının prokurorluq orqanları qarşısında mühüm və məsul vəzifələr durur. Ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyin yaradılmasında milli dövlətçiliyimizin hər cür cinayətkar qəsdlərdən qorunmasında, insan hüquq və azadlıqlarının təminatında prokurorluq orqanlarının mühüm xidmətləri vardır.

Rayonumuzun prokurorluq orqanlarının əməkdaşları da milli prokurorluq orqanlarının yaradılmasının 99 illik yubileyini - öz peşə bayramlarını qeyd etdilər.

Həmin gün rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun prokurorluq orqanlarının əməkdaşları, digər hüquq-mühafizə orqanlarının rəhbərləri və rayonun ayrı-ayrı idarə, müəssisə, təşkilat rəhbərləri Azərbaycanın prokurorluq orqanlarının əbədi və fəxri rəhbəri, bu mühüm dövlət təsisatında peşəkarlıq məktəbinin banisi, müstəqillik illərində prokurorluq orqanlarının insan hüquq və azadlıqlarının təminatçısı kimi formalaşmasında misilsiz xidmətləri olan ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad etdilər, abidəsi önünə tər gül dəstələri düzdülər.

***"Hacıqabul"***

## Ağ örpəkli tarlalar hünər meydanına çevrilir

### *Hacıqabullular bu il daha böyük uğur qazanacaqlarına inanırlar*



***Elimizə-obamıza barlı-bərəkətli payız gəlib. Yenə də kəndlərin toylu-büsatlı, çalçağırlı günləri başlayıb. Məhsul bolluğundan doğan sevincin həftələrin, ayların ağrı-acısını unutduran, xoş güzərandan, firavanlıqdan qaynaqlanan duyğuların isə payızın bayram ab-havasında özünəməxsus yeri var.***

*(Davamı səh. 3-də)*

# YAP Hacıqabul rayon təşkilatında partiyanın yaranmasının 25-ci ildönümü ilə bağlı tədbir keçirilib




Yeni Azərbaycan Partiyasının ( YAP) yaranmasının 25-ci ildönümü ilə bağlı partiyanın Hacıqabul rayon təşkilatında Tədbirlər Planı təsdiq olunub. Tədbirlər Planına rayonun Udulu kənd Mədəniyyət evində "Yeni Azərbaycan Partiyası xalqın inam və güvənc yeridir" adlı tədbirlə start verilib.

Tədbirdə YAP rayon təşkilatının sədri Hafiz Bəşirov geniş məruzə ilə çıxış edib. O, partiyanın yaranma tarixindən, söz açaraq 25 ildə keçdiyi şərəfli inkişaf yolundan danışıb, partiyanın dövlətimizin qüdrətlənməsi naminə gördüyü mühüm işlərdən danışıb.



YAP rayon təşkilatının sədri çıxışında qeyd edib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyası yarandığı gündən xalqın inam və güvənc yerinə çevrilib. Bu gün Azərbaycan Prezidenti, YAP sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu siyasət kursunun həyata keçirildiyini deyən H.Bəşirov YAP rayon təşkilatının da üzərinə düşən vəzifələrin hər zaman yerinə yetirildiyini, fəaliyyətində aktivlik nümayiş etdirdiyini bildirib.

Məruzə ətrafında çıxış edən YAP rayon təşkilatının Şura üzvü Əsabir Məmmədov, Əmrah Süleymanov, ilk partiya təşkilat sədrləri Vaqif Qocayev, Sərdar Hüseynov partiyanın hər zaman milli maraqları qorumaq üçün səfərbər olduğunu, YAP-ın regionun ən böyük və nüfuzlu partiyasına çevrildiyini bildiriblər.

***"Hacıqabul"***

# Şəhidlər Xiyabanına yürüş




"Qarabağ Qaziləri" İctimai Birliyinin və "Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin rayon şöbələrinin birgə təşkilatçılığı ilə rayonun Dağüstü Massivində yerləşən Şəhidlər Xiyabanına yürüş keçirildi. Yürüşdə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Abdulla Qurbani iştirak edirdi. Şəhərimizdəki N saylı hərbi hissənin qarşısından start götürən maşın karvanı və piyadalar Şəhidlər Xiyabanına hərəkətə başladı. Şəhidlərin abidəsi önünə tər gül dəstələri düzüldü. Sonra çıxış edən qazilər hər bir şəhid haqqında, onun keçdiyi döyüş yolundan fəxrlə, qürurla danışdılar.

Polkovnik Abdulla Qurbani özünün şəhidlərə həsr etdiyi "Şəhidlər" və "Lələtəpə fatehləri" şerlərini söylədi.

Şəhidlərin ruhuna dualar oxundu, onlara Allahdan rəhmət diləndi.

# Vətən naminə

Qarabağ Qaziləri İctimai Birliyinin və Vətən Müharibəsi Veteranları İctimai Birliyinin rayon şöbələri bu günlərdə cəbhə bölgəsində əsgər və zabitlərlə görüş keçirmişdir. Cəbhə bölgəsində yerləşən Tərtər rayonunun Borsunlu kəndində ön cəbhədə düşmənlə üz-üzə dayanan əsgər və zabitlərimizlə görüş "Vətən naminə" adlanırdı. Tədbirin təşkilatçısı isə vətənpərvər həmyerlimiz "Vətən naminə" fəxri medalı ilə təltif olunmuş Yaqub Teymurbəyli idi. Biz bir qrup Qarabağ qaziləri cəbhə bölgəsində şərəflə xidmət edən zabit və əsgərlərimizlə görüşdük, şəxsi heyət qarşısında çıxış etdik, əsgər və zabitlərimizə hədiyyələr ərməğan etdik və şərəfli xidmətlərində onlara uğurlar arzuladıq.

Görüşdə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Abdulla Qurbani də iştirak edirdi. Bu görüşün bizüm üçün özəlliyi onda idi ki, vaxtilə bu bölgələrdə biz də düşmənlə üz-üzə dayanmışdıq, döyüşmüşdük, şərəfli döyüş yolu keçmişdik. Bizim sıralarımızda o vaxtlar Qarabağ qazilərindən Şəmsi Nəcəfov, Kamal Əmənov, Atamoğlan Süleymanov, İnqilab Şirəliyev, Məmməd Əhmədov da var idi.

Biz bu bölgədə Milli Qəhrəmanımız Mübariz İbrahimovun adını daşıyan "Mübariz" postunda olduq, gənc əsgərlərimizə vətənpərvər ruhlu tövsiyyələrimizi verdik və onlara vətənimizin adını daim uca tutmağı arzuladıq.





Biz hər zaman əggər və zabitlərimizin yanında olmağa çalışırıq və dəfələrlə cəbhə bölgəsində əsgər və zabitlərlə görüşə gedirik.

Görüşdə çıxış edən veteran hərbçilər və qazilər keçdikləri döyüş yolundan, ordumuzun gücü, əsgərlərdə olan vətənpərvərlik ruhu, ordumuzun yüksək döyüş hazırlığı, hər növ təminatı, istənilən halda düşməni məğlub etməyə hazır olduğundan danışdılar.

Əsgər və zabitlər qarşısında çıxış edən Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Abdulla Qurbani ordumuzun müdafiə qüdrətinin gündən-günə artdığını, əsgər və zabitlərimizdə milli ruhun yüksək olduğunu qeyd edərək vurğuladı ki, qarşınızda duran veteranlar və qazilər vətənin çətin günlərində, silah-sursatın çatışmayan, kadr çatışmamazlığının olduğu, ölkədə baş verən hərc-mərclik və kürsü davasının getdiyi bir vaxtda könüllü olaraq silaha sarılaraq vətənin müdafiəsinə qalxdılar, torpaqlarımızı işğaldan azad etmək üçün canlarını qurban verdilər. Bu gün də lazım gələrsə hər bir veteran və qazi vətənin müdafiəsinə qalxmağa hazırdır. Natiq belə görüşlərin digər döyüş bölgələrində də keçirilməsinin əhəmiyyətini vurğuladı.

Bu işdə bizə daim diqqət və qayğısını, köməyini əsirgəməyən rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarova minnətdarlığımızı bildiririk.

***İntiqam Abdulov,***
***Qarabağ Qaziləri İctimai Birliyinin rayon şöbəsinin sədri***

# 2017-ci ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarət və iaşənin vəziyyəti

**Hacıqabul rayonunda ticarət və xidmət şəbəkələrinin genişlənməsi nəticəsində son illərdə olduğu kimi 2017-ci ilin yanvar-iyun aylarında da ticarət və iaşənin göstəriciləri əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, 2017-ci ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarət sektorunda 11 ticarət müəssisəsi, 284 fərdi sahibkar, 1 bazar və yarmarka fəaliyyət göstərmişdir. Rayonda fəaliyyət göstərən bazar 70 ticarət yeri olmaqla 1000 kv.m sahəni əhatə edir.**

2017-ci ilin yanvar-iyun aylarında Hacıqabul rayonu üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 109108,0 min manat təşkil etmişdir.Rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə fiziki həcm indeksi 100,4 faiz təşkil etmişdir.Əmtəə dövriyyəsinin ümumi həcmində ərzaq mallarının xüsusi çəkisi 53,3 faiz, qeyri-ərzaq məhsullarının xüsusi çəkisi isə 46,7 faiz təşkil etmişdir. Başqa sözlə, pərakəndə əmtəə dövriyyəsinin həcmində ərzaq mallarının payı 58106,0 min manat, qeyri-ərzaq mallarının payı isə 51002,0 min manat olmuşdur. Rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmində ərzaq mallarından - çörək və bulka məmulatları, ət və quş əti məhsulları, kartof və tərəvəz, kərə və bitki yağları, qeyri-ərzaq mallarından- tikinti materialları, benzin və digər yanacaqlar, dərman - tibbi təyinatlı mallar, elektrik məişət malları daha böyük xüsusi çəkiyə malik olmuşdur.

2017-ci ilin birinci yarısında respublika üzrə pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində Hacıqabul rayonunun payı 0,7 faiz təşkil etmişdir. Rayonun daxil olduğu Aran iqtisadi bölgəsi üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmində Hacıqabulun əmtəə dövriyyəsinin xüsusi çəkisi isə 5,1 faiz olmuşdur.

Rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmində hüquqi şəxslərin payı 8,2 faiz və ya 8967,2 min manat, fiziki şəxslərin payı isə 91,8 faiz və ya 100140,8 min manat olmuşdur. Hüquqi şəxslərin ticarət şəbəkələrindən alınmış istehlak mallarının həcmində ərzaq mallarının payı qeydə alınmamış, qeyri-ərzaq mallarının payı isə 100,0 faiz təşkil etmişdir.

Hacıqabul rayonunda fəaliyyət göstərən bazar və yarmarkalar üzrə əmtəə dövriyyəsinin həcmi 4980,0 min manat olmuşdur ki, bu da rayon üzrə ümumi pərakəndə əmtəə dövriyyəsinin 4,6 faizini təşkil edir.

**(Davamə səh. 3-də)**

# Ağ örpəkli tarlalar hünər meydanına çevrilir

(Əvvəli səh. 1-də)

Bu günlər həm də bərəkətli çöllərimizə bəm-bəyaz qar yağıb elə bil. Dünənə kimi yaşıl don geyinmiş geniş tarlalar indi sanki gəlinlik



örpəyinə bürünüb. Təxminən bir ay əvvəl səssizlik hökm sürən çöllərimiz bu günlər yenə səsli-küylüdür. "Ağ qızıl" toplayan kənd əməkçilərinin, eləcə də bu strateji əhəmiyyətli məhsulun yığılmasında kənd zəhmətkeşlərinə köməyə gələn insanların topladıqları tonlarla məhsul hər gün maşınlarla məntəqələrə yola salınır.

Pambıq əkilən ərazilərimizi gəzib dolaşdıqca hiss olunur ki, yığıma kimi sahələrdə ərazilər abadlaşdırılıb, texnikalar texniki baxışdan keçirilib, saz vəziyyətə gətirilib, zəhmətkeşlərin nahar fasiləsində dincəlmələri üçün hər şərait yaradılıb.

Pambıqçılığın önəm daşıdığı 70-ci illərdə Hacıqabul rayonunun Kürqırağı kəndlərində hər il dövlətə tonlarla pambıq təhvil verilirdi. Bu gün rayonumuzda bu ənənəvi kənd təsərrüfatı sahəsini davam etdirmək üçün inamlı addımlar atılır, ildən-ilə fərəhli nəticələr qazanılır. Keçən il rayonun təsərrüfatlarında 526 hektar sahədə pambıq əkilmiş, 1000 tona yaxın "ağ qızıl" istehsal olunmuşdur. Bu il isə əkin sahələri genişləndirilərək 1200 hektara çatdırılmışdır. Pambığın təhvil verilməsi üçün MKT İK MMC Sabirabad filialı və Hacıqabul KT MMC ilə müqavilə bağlanmışdır.Tarlaların becərilməsində aqrotexniki tələblərə ciddi əməl olunmuş, rayonun meliorasiya işçilərinin fədakarlığı sayəsində əkinlər sudan korluq çəkməmiş, pambığın xəstəlik və ziyanvericilərinə qarşı təsirli kimyəvi mübarizə aparılmışdır.

İndi isə pambıqçılıqda həlledici mərhələ başlanmışdır. Böyük zəhmət bahasına hasilə gətirilən məh-



sulu tez və itkisiz yığıb tədarük etmək bu günümüzün ən aktual vəzifəsidir.

Budur, rayonun Qarasu kəndi ərazisində əkilmiş pambıq sahəsindəyik. Qarşımızda qəribə bir payız mənzərəsi canlanır. İlin bu bar-bərəkət fəslində məhsul bolluğu göz oxşayır, könüllərdə xoş duyğular oyadır.

Artıq bir neçə gündür ki, pambıq yığımına başlanılıb. Sahələr maşınla yığıma hazır olmadığından hələlik əl ilə yığılır. Hacıqabul rayon Kənd Təsərrüfatı İdarəsinin Bitkiçilik sektorunu müdiri Əliabbas Məmmədovla söhbət əsnasında bildirdi ki, rayonun Kürqırağı kəndi olan Ələtlidə sahələr maşınla yığıma hazır olduğundan maşınla 6 tona yaxın məhsul yığılmışdır. Lakin rayonun Qarasu və Padar ərazisində əkilən pambıq hələ ki, maşınla yığıma hazır deyil. Bir neçə gündən sonra sahələrdə dərmanlama işinə başlanacaq. Pambıq yığımında çalışırıq ki, üstünlüyü texnikaya verək.Bunun üçün zəruri hazırlıqlar da görülmüşdür. Tarlalarda yarpaq tökümü üçün lazım olan preparatlar alınmış, 2 ədəd çiləyici aqreqatdan istifadə olunacaqdır. Yəqin ki, yaxın günlərdə maşınlarla kütləvi yığıma başlanacaq.

Rayon Aqrolizinq İdarəsi bu il yeni 2 ədəd pambıqyığan kombayn, 10 ədəd isə yığılan pambığı məntəqələrə daşımaq üçün qoşqulu lafet almışdır.

İnanırıq ki, elin bu əvəzsiz sərvəti qolunun qüvvətinə, hünərinə, ürəyinin hərarətinə güvənən insanların zəhməti bahasına yığılaraq təhvil veriləcəkdir.

*"Hacıqabul"*

# 2017-ci ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarət və iaşənin vəziyyəti

(Əvvəli səh. 2-də)

2017-ci ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən 95160,8 min manatlıq müxtəlif istehlak malları satılmışdır ki, bu da rayon üzrə əmtəə dövriyyəsinin 87,2 faizini təşkil edir.

Rayon ərazisində hüquqi şəxslər üzrə pərakəndə əmtəə dövriyyəsinin ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə fiziki həcm indeksi 100,7 faiz, fiziki şəxslər üzrə isə 100,4 faiz olmuşdur.Fiziki şəxslər tərəfindən satışı realizə olunmuş malların 58,0 faizi ərzaq, 42,0 faizi isə qeyri-ərzaq məhsulları olmuşdur.

2017-ci ilin birinci yarısında Hacıqabul rayonunda hər sakinə düşən pərakəndə əmtəə dövriyyəsinin həcmi 1472,4 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,5 faiz çoxdur. Hər sakinə düşən ərzaq malları dövriyyəsi 784,2 manat, qeyri-ərzaq malları dövriyyəsi isə 688,2 manat təşkil etmişdir.

Hesabat dövrünün sonuna rayonun pərakəndə ticarət şəbəkələrində 10837,9 min manatlıq əmtəə məhsulları qalığı qeydə alınmışdır.Bu məhsulların 3,1 faizi və ya 339,9 min manatı hüquqi şəxslərin, 76,5 faizi və ya 8290,0 min manatı fiziki şəxslərin, 20,4 faizi və ya 2208,0 min manatı isə bazar və yarmarkaların anbarlarında qeydə alınmışdır.

2017-ci ilin yanvar-iyun aylarında rayonda topdansatış ticarət şəbəkəsilə 607,0 min manatlıq əmtəə məhsulları satılmışdır.Topdansatış şəbəkədə satılmış malların 13,5 faizi və ya 82,0 min manatı hüquqi, 86,5 faizi və ya 525,0 min manatı isə fiziki şəxslər tərəfindən realizə olunmuşdur.

Hesabat dövründə rayonda topdansatış ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 24,1 faiz azalmışdır. Topdansatış ticarət dövriyyəsinin ötən ilin müvafiq dövrünə nisbətən cari qiymətlərlə fiziki həcm indeksi hüquqi şəxslərdə 40,2 faiz, fiziki şəxslərdə isə 103,3 faiz təşkil etmişdir.2017-ci il iyulun 1-i vəziyyətinə rayonda topdansatış şəbəkəsi anbarlarında 390,2 min manatlıq əmtəə qalığı qeydə alınmışdır.

Hesabat dövründə rayonda iaşə sahəsində 64 fərdi sahibkar fəaliyyət göstərmişdir. Bu obyektlərdə oturacaq yerlərinin sayı 644 olmuşdur. 2017-ci ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda 1900,0 min manatlıq iaşə dövriyyəsi qeydə alınmışdır. Ötən ilin müvafiq dövrünə nisbətən iaşə dövriyyəsinin müqayisəli qiymətlərlə həcm indeksi 101,0 faiz olmuşdur. 2017-ci ilin birinci yarısında Hacıqabul rayonunda hər sakinə düşən iaşə dövriyyəsinin həcmi 25,6 manat təşkil etmişdir.2017-ci ilin altı ayında respublika üzrə iaşə dövriyyəsinin həcmində Hacıqabul rayonunun xüsusi çəkisi 0,3 faiz, Aran iqtisadi rayonu üzrə iaşə dövriyyəsinin həcmində isə 3,5 faiz olmuşdur.Hesabat dövründə rayonda qeydə alınmış iaşə dövriyyəsinin hamısı fiziki şəxslər tərəfindən reallaşmışdır.

*Rayon Statistika İdarəsi*

# Tarlaların bəyaz donu bol məhsuldan xəbər verir



Prezident İlham Əliyevin pambıqçılığı inkişaf etdirmək, bu sahədəki əvvəlki şöhrəti qaytarmaq barədə tapşırıq və tövsiyyələri ölkəmizin hər yerində olduğu kimi, Hacıqabul rayonunda da fəaliyyət proqramına çevrilmişdir. İnsanlarımız qarşıya qoyulan vəzifənin məsuliyyətini, bunun dövlət və xalq üçün böyük əhəmiyyət kəsb etdiyini yüksək dəyərləndirir, bu sahədəki mövcud imkan və ehtiyat mənbələrindən maksimum səmərəli istifadə etməyə çalışırlar.

Bol məhsullu pambıq tarlaları bu günlər Hacıqabulda sözün həqiqi mənasında hünər meydanına çevrilib. Ürəyinin oduna, əllərinin zəhmətinə güvənən, Prezident İlham Əliyevin kənd təsərrüfatının ənənəvi sahəsi olan pambıqçılığı inkişaf etdirməyə göstərdiyi qayğı və diqqətdən güc alan Hacıqabul kəndlisi ölkə pambıqçılarının əmək bəhsində öz töhfəsini verməkdədir.

Rayonumuzun Ələtli kəndi ərazisində də pambıq yığımının qızğın çağıdır. Bu günədək maşınlarla 6 tona yaxın pambıq yığılmışdır.

# Pambıq həm əziyyətli, həm də bərəkətli bitkidir...

***Rayonumuzun torpaq mülkiyyətçiləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin pambıqçılığı yenidən dirçəltmək və inkişaf etdirmək barədə tapşırıq və tövsiyyələrinə uyğun olaraq məhsul yığımının sürətini gündən-günə artırırlar. Belə ki, bu günə kimi rayonumuzda ümumən 230 tona yaxın pambıq toplanmışdır .***

Padar qəsəbəsində 41 tondan çox məhsul təhvil verilmişdir. Icarədarlardan Möhlət Atakişiyevin sahəsində 15 tona yaxın, Əlifağa Səfərovun sahəsində 14 ton, Nüstət Xəlilovun sahəsində 4 ton 500 kq məhsul toplanmışdır.

Pambıqçılar- Həlimə Allahyarova, Elmira Eminalıyeva,Şövkət Eminalıyeva,Pakizə Rəşidova, Zeynəb Gülalıyeva hər gün adambaşına 85-110 kq "ağ qızıl" toplayırlar.

Qarasu kəndində icarədarlar bu günə kimi 61 tondan çox , Abdulabad kəndində 11 tona yaxın, Ələtli kəndində 32 ton, Meyniman kəndində isə 85 tondan çox məhsul toplanmışdır.

Abdulabad kəndində icarədar İsmayıl İsmayılov və Talıb Mirzəyevin sahələrində 11 tondan çox məhsul toplanmışdır. Məhsul yığımında kənd sakinləri Səkinə Rzayeva, Nigar Xankişiyeva, Ağabikə Zamanova. Tahirə Məmmədova, Qumru Süleymanova, kənd məktəbinin texniki işçiləri Zahirə Fərziyeva, Billurə Süleymanova, Natəvan Məmmədova, Pakizə Məmmədova fərqlənir, hər gün adambaşına 70-80 kq pambıq toplayırlar. Icarədar İ.İsmayılov deyir ki, pambıq həm əziyyətli, həm də bərəkətli bitkidir. Odur ki, kənd sakinləri gərək hər qarış torpaqdan səmərəli istifadə etsin. Rayon İcra Hakimiyyətinin başçısı cənab Əhməd Muxtarovun dəstəyi və köməkliyi ilə Abdulabad ərazisində 95 hektar sahə şoran sulardan təmizlənərək əkin üçün yararlı hala salınmışdır.

Qarasu kəndində icarədar Murad Abdullayev bu il 85 hektar sahədə pambıq əkmişdir. Qabaqcıl torpaq mülkiyyətçisi yığım mövsümü başlanandan bəri qüvvələri səfərbərliyə almış, bu günə qədər 17 ton məhsul yığılmasına nail olmuşdur. Meyniman kəndində Natiq Dostəliyevin sahəsində 37 ton(60 ha sahə)məhsul, Yengibar Zərbəliyevin (10 ha sahə) sahəsində isə 18 tona yaxın pambıq toplanmışdır.

Ələtli kəndində İlqar Mİrzəyev cari mövsümdə 14 hektar sahədə pambıq əkib becərmişdir. Hal-hazıra kimi onun sahəsində 9 ton 800 kq məhsul toplanmışdır. Kənd əməkçilərimiz pambıq yığımı üçün əlverişli hava şəraitinin hər günündən, hər saatından səmərəli istifadə edərək pambıq yığımı planını artıqlaması ilə əməl etmək üçün var qüvvə ilə çalışırlar. Sübh tezdən axşam düşənə kimi pambıqçılar sahələrdən çəkilmir, "ağ qızıl" ı son qozayadək itkisiz toplamaq üçün bütün qüvvələri səfərbərliyə almışlar. Rayonun pambıq tarlalarında yetişdirilən məhsulu yığmaq üçün 2 yığım maşını cəlb olunmuşdur. Təcrübəli mexanizatorlardan Cümşüd Abbasov, Müşfiq Quliyev sahələrdə məhsulu itkisiz və sürətlə yığırlar. Bu günə kimi mövcud texnikanın gücü ilə 10 tondan çox məhsul toplanmışdır.

Cənab Prezidentin pambıqçılığın inkişafına göstərdiyi qayğıdan ruhlanan kənd əməkçılərimiz məhsul yığımının sürətini gündən-günə artırırlar. Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarovun təşəbbüsü ilə yaradılan operativ qərərgahın üzvləri hər gün sahələrdə olur, icarədarlardan, pambıqçılardan köməkliklərini əsirgəmirlər.

Ümüdvarıq ki, pambıqçılarımız çox çəkməyəcək, qələbə raportunu imzalayacaqlar

***Nazim Fətixanoğlu***

# HACIQABUL

№ 15 (674) 30 sentyabr 2017-ci il

# ELİN SƏRVƏTİNİ YANĞINDAN QORUYAQ!

***Pambıq çox mənfəətli bitkidir və o, hər yerdə bitmir. Onun əkilib becərilməsi üçün xüsusi iqlim torpaq şəraiti lazımdır. Azərbaycan isə pambıq istehsalı üçün həm iqlim, həm də torpaq şəraiti baxımından əlverişli bir məkandır. Buna görə də ulu babalarımız da pambıqçılıqla məşğul olublar.***

***Ümummilli lider Heydər Əliyev***

Pambıq, daha çox əl əməyi tələb edən qiymətli bir bitkidir. Kənd təsərrüfatı zəhmətkeşlərinin gərgin əməyi hesabına əmələ gələn bu qiymətli sərvətin qorunması tarlalarda, pambıqqurutma meydançalarında, tədarük məntəqələrində, pambıq emalı zavodlarında yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasından çox aslıdır.

Pambığın yanğından mühafizə olunması ilə əlaqədar birinci növbədə qeyd olunmalıdır ki, bu qiymətli bitkinin yığılması, tədarükü və emalı ilə məşğul olan bütün kənd təsərrüfatı və fermer müəssisələri, digər obyektlərin rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasına məsuliyyət daşıyırlar. Kənd təsərrüfatı müəssisələrinin və digər obyektlərin rəhbərləri, fermerlər pambıq yığımı mövsümünün başlanğıcında bütün texnikanı yanğına qarşı hazırlamaqla yanaşı, işçilərin yanğına qarşı bilgilərlə təlimatlandırılması üçün cavabdeh şəxslər təyin etməlidirlər.

Pambıq yığımında, onun daşınması və emalında kənd təsərrüfatı texnikalarının - traktorların, pambıqyığan maşınların, yanacaq daşıyan nəqliyyatın istismarına yalnız dövlət yanğın nəzarəti xidməti əməkdaşlarının iştirakı ilə xüsusi komissiyanın razılığı olduqdan sonra icazə verilməlidir.

Xam pambığın yığılmasına, daşınmasına və emal olunmasına cəlb olunmuş bütün kənd təsərrüfatı maşınları mütləq ilkin yanğınsöndürmə vəsaitləri ilə, qığılcım söndürənlərlə, süpürgələrlə və üzərində yanğına qarşı təbliğat mövzuzunda yazılı olan dəmir lövhələrlə təmin olunmalıdır.

Pambıq yığan maınlar, traktorlar, nəqliyyat vasitələri məhsul yığımına cəlb edilərkən onların qidalanma, alışdırma sistemləri, sürtülən hissələri, tüstüboğucu sistemləri diqqətlə yoxlanmalıdır. Pambıqyığan və pambıq daşıyan maşınların tüstüboğucu boruları saz, kollektorların birləşmələri kip olmalı və atqı boruları saz qığılcımsöndürənlərlə təmin edilməmidir. Atqı borularının və qığılcımsöndürənlərin içərisində əmələ gələn qurum müntəzəm olaraq təmizlənməlidir. Mühərrikin qızmış hissələrinə xam pambığın düşməsinin qarçısını almaq məqsədilə örtüksüz və ya açıq örtüklü texnikanın istismsr olunması yolverilməzdir.

Nasazlıq aşkar edilmiş texnikanın məhsul yığımına buraxılması qəti qadağandır.

Pambığın yanğından qorunması üçün digər yanğın təhlükəsizliyi qaydalarına da əməl olunmalıdır. Belə ki, tarlaların, xırmanların ərazisində və yaxınlığında tonqal qalanmasına, açıq oddan istifadə edilməsinə, siqaret çəkilməsinə icazə verilməməlidir.

Pambıq yığımı zamanı pambıqyığan maşının işi qurtardıqdan sonra sahədə saxlanılması yanğın təhlükəlidir.

Tarlada pambıqyığan maşınların, traktorların, digər texnikanın yanacaqla təmin edilməsi mühərriklər söndürüldükdən sonra yanacaqdolduran maşınların vasitəsi ilə həyata keçirilməlidir. Gecə vaxtı yanacaq doldurmaq, qadağandır.

Pambıqla birlikdə maşında adam daşınmasına (məhsul üçün məsul şəxsdən başqa) yol verilmir. Maşınlar pambıq tayalarına 5 metrə qədər məsafə saxlamaqla yanaşa bilər. Maşın pambıq olan yerə yaxınlaşan kimi dərhal mühərrik söndürülməlidir.

Maşına yüklənmiş pambığın üstü brezentlə kip örtülməli, maşında kimyəvi odsöndürən və kürək olmalıdır.

Pambığı daşıyan maşınların döşəmələrində yarıqlar olmamalıdır.

Traktorların, avtomobillərin, pambıqyığan maşınların dayanacaq yeri, həmçinin onların təmiri, yağlanması, yanacaqla doldurulması üçün nəzərdə tutulmuş yerlər pambıqqurutma meydançalarından ən azı 50 metr aralı məsafədə olmalıdır.

Xam pambıq tayaları mütləq brezentlə örtülməlidir. Pambıqtəmizləmə zavodlarının, pambıq qəbulu və tədarük məntəqələrinin ərazisi quru otdan, yerə dağılmış pambıqdan, zibildən daima təmizlənməlidir.

Xam pambıq yalnız gündüz qəbul edilməlidir. Qəbul zamanı pambığın tədarük məntəqəsinin və ya zavodun həyətində yerə dağılmasına yol vermək olmaz. Bu yerlərdə siqaret çəkilməsi, açıq oddan istifadə olunması qadağandır.

Yanğınsöndürmə üçün su mənbəyi olan su hovuzlarına yollar salınmalı və hovuzların yanında avtomobillərin dönə bilməsi, manevr etməsi üçün 12x12 m ölçüdə bərk örtüklü meydançalar olmalıdır.

Kənd təsərrüfatı zəhmətkeşləri, fermer təsərrüfatlarında çalışanlar pambığın yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarını bilməklə, onlara riayət etməklə yanaşı, baş verən zaman nə cür hərəkət etmələrini də bilməlidirlər.

Pambıq tarlasında yanğın baş verərsə mövcud yanğınsöndürmə vəsaitlərindən, o cümlədən kimyəvi odsöndürənlərdən, ehtiyat sudan, süpürgədən və torpaqdan istifadə edərək dərhal yanğını söndürməyə başlamaq və texnikanı tarladan çıxarmaq lazımdır.

Xam pambıq tayalarında yanğın zamanı mövcud səs siqnallarından istifadə etməklə ətrafdakı insanları xəbərdar etmək, yanğın lülələrindən istifadə etməklə yanğın yerinə su vermək, torpaq atmaq, xam pambıq tayasını dağıtmaq lazımdır.İmkan olarsa islanmış brezent örtüklə xam pambığın üstü örtülməlidir.

Pambığın nəm halda maşında saxlanması, tayaya vurulması qadağandır. Unutmaq olmaz ki, nəm pambıq öz-özünə alışır.

Yanğın zamanı bütün hallarda dərhal yanğından mühafizə hissələrinə məlumat verilməlidir.

Qiymətli sərvəti - pambığı yanğından qorumaq hər bir vətəndaşın vacib işi olmalıdır.

***Mugan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

# Kino günləri davam edir

Rayon Heydər Əliyev Mərkəzində "Aktrisa" filmi nümayiş olundu. Mərkəzin direktoru Aytən Zülfəliyeva Kino movsümü ilə əlaqədar Heydər Əliyev Mərkəzində göstəriləcək filmlər barədə tamaşaçılara məlumat verdi. Qeyd etdi ki, filimlərin afişaları Mərkəzin Facebook səhifəsində mütəmadi yerləşdiriləcək. Sonra 2011-ci ildə çəkilmiş, rejissoru Rövşən İsax olan "Aktrisa" bədii filminə tamaşa edildi.

***Bahar Abasova, rayon Heydər Əliyev Mərkəzinin baş fond mühafizi***

## 2017-ci il oktyabr ayı üçün Hacıqabul rayon İcra Hakimyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| | Vəzifəsi | Həftənin günləri | Saat |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

# Ümumdünya Turizm günü



Beynəlxalq Turizm günü ilə əlaqədar rayon Heydər Əliyev Mərkəzində Hacıqabul və Şirvan gənclərinin əl işlərindən ibarət sərgi nümayiş olundu. Sərgidə rayon Heydər Əliyev Mərkəzinin və Şirvan



Mədəniyyət Mərkəzinin rəsm dərnəyi üzvlərinin əl işləri, Azərbaycanın çalğı alətləri, milli geyimləri, rayon Tarix-Diyarşünaslıq muzeyinin eksponatları, həvəskar gənclərin əl işlərindən ibarət əşyalar nümayiş olundu.

Sonda sərgi haqqında tamaşaçılara geniş məlumat verildi.

***Aytən Zülfəliyeva, rayon Heydər Əliyev Mərkəzinin direktoru***

## Allah rəhmət eləsin!

"Hacıqabul" qəzetinun kollektivi Mübariz Xəlilova qardaşı **həkim Tofiq Xəlilovun** vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

ARDNS "Neftqazelmitədqiqatlayihə"institutunun əməkdaşı, texnika elmləri namizədi Xuraman Canibəyova və 1 və 3 saylı şəhər orta məktəblərinin 1973-1975-ci il məzunları Mübariz Xəlilova qardaşı **Tofiq həkimin** vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru Məhəmməd İsayev və kollektivi Mübariz Xəlilova qardaşı **Tofiq həkimin** vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200